

# İnsan alverinə qarşı mübarizə haqqında **Avropa Şurası Konvensiyası**

## Qurbanların **hüquqları**

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE



**İnsan alveri Avropada və onun sərhədlərindən kənarda yaşayan saysız-hesabsız insanların hüquqlarını pozur və onların həyatına mənfi təsir göstərir. Ölkələr arasında və ya öz ölkələrində əmtəə kimi satılan, istismar və sui-istifadə tələsinə düşən qadınların, kişilərin və uşaqların sayı artmaqdadır.**

1 fevral 2008-ci il tarixdə qüvvəyə minmiş İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının məqsədləri aşağıdakılardır:

- insan alverinin qarşısını almaq,
- insan alveri qurbanlarını müdafiə etmək,
- səmərəli istintaqı və mühakiməni təmin etmək, və
- insan alverinə qarşı mübarizəyə dair milli fəaliyyət planlarının koordinasiyasını və beynəlxalq əməkdaşlığı təşviq etmək.

Konvensiya tətbiq edilir:

- milli və ya transmilli səviyyədə olmasından, eləcə də mütəşəkkil cinayətkarlıqla əlaqəli olub-olmamasından asılı olmayaraq, insan alverinin bütün formalarına,
- insan alverinin bütün qurbanlarına (qadın, kişi və uşaq),
- bütün istismar formalarına (cinsi istismar, məcburi əmək və ya xidmətlər, köləlik, əsarət, orqanların çıxarılması və s.).

Konvensiyanın əsas dəyəri insan hüquqlarını və qurbanların müdafiəsini diqqət mərkəzində saxlamasıdır. Konvensiya insan alverini insan hüquqlarının, insan ləyaqətinin və toxunulmazlığının pozulması kimi müəyyən edir. Bu o deməkdir ki, milli hakimiyyət orqanları insan alverinin qarşısının alınması, insan alveri qurbanlarının müdafiəsi və insan alveri hallarının səmərəli istintaqının təmin edilməsi yönündə tədbir görmədikləri halda məsuliyyət daşıyırlar.

İnsan alveri sərhəd tanımayan bir fenomen olduğundan, Konvensiya bütün dünya ölkələri üçün aktualdır və onlara açıqdır.

# İNSAN ALVERİ NƏDİR?

Konvensiya insan alverini üç elementin kombinasiyası kimi müəyyən edir:

- **fəaliyyət**: insanın cəlb edilməsi, daşınması, bir yerdən başqa yerə keçirilməsi, gizlədilməsi və ya qəbul edilməsi;
- müəyyən **vasitələrdən** istifadə ilə: hədə-qorxu və ya zor tətbiq etməklə, yaxud başqa cür məcbur etməklə, qaçırma, dələduzluq və ya aldatma yolu ilə, vəzifədən və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə, yaxud pul və ya digər maddi vəsaitlər vermək və ya almaqla hər hansı bir şəxsdən onun himayəsində olan şəxs barəsində razılıq almaqla;
- **istismar məqsədi** üçün: ən azı, başqalarını məcburi fahişəliyə və digər cinsi istismar formalarına cəlb etmə, məcburi əmək və ya xidmətlər, köləlik və ona oxşar əməllər, yaxud daxili orqanların çıxarılması.

# İNSAN ALVERİ VƏ İNSAN QAÇAQMALÇILIĞI ARASINDA HANSI FƏRQ VAR?

İnsan qaçaqmalçılığının məqsədi, birbaşa və ya dolayı yolla maliyyə və ya digər maddi mənfəət əldə etmək üçün qeyri-qanuni transsərhəd insan daşımaları olduğu halda, insan alverinin məqsədi istismardır. Bundan əlavə, insan alverində transsərhəd insan daşınması mütləq deyil, o, ölkə daxilində də həyata keçirilə bilər.



# İNSAN ALVERİNİN QURBANI KİMDİR?

Hər bir kəs insan alverinin qurbanı ola bilər - qadınlar, kişilər və uşaqlar, bütün yaş kateqoriyalarından və sosial statusdan olan insanlar. İnsan alverinin qurbanı, məsələn, cinsi xidmət göstərməyə, az ödənişli və ya ödənilməyən iş görməyə məcbur edilən, yaxud daxili orqanın çıxarılmasına məruz qalan şəxsdir. İstismar çox vaxt qurbanlara və ya onların yaxınlarına fiziki və emosional zorakılıq və hədə-qorxu ilə müşayiət olunur.

Konvensiyaya görə, insan alverinin qurbanı hədə-qorxu gəlmə, güc istifadəsi, fırıldaqçılıq, məcbur etmə və ya digər qeyri-qanuni vasitələrlə ölkə daxilində və ya ölkələr arasında istismar məqsədi ilə cəlb edilmiş, daşınmış, bir yerdən başqa yerə keçirilmiş, gizlədilmiş və ya qəbul edilmiş şəxsdir.

Hər hansı bir uşağın istismar məqsədilə cəlb olunması, daşınması, bir yerdən başqa yerə keçirilməsi, gizlədilməsi və ya qəbul edilməsi, hətta bu maddədə qeyd olunan **vasitələrdən** heç biri tətbiq olunmadığı halda belə insan alveri hesab olunur.

İnsan alveri qurbanının istismar üçün "öz razılığı" göstərilən **vasitələrdən** (məcbur etmə, dələduzluq, insanın zəifliyindən sui-istifadə, və s.) hər hansı birinin tətbiq olunduğu təqdirdə nəzərə alınmır. Beləliklə, qadın/kişi göstərilən **vasitələrdən** istifadə olunmuş bir **fəaliyyətin** subyekti olduqları halda, hətta hələ itismara məruz qalmasa belə insan alverinin qurbanı hesab olunur.

# İNSAN ALVERİ QURBANLARININ KONVENSİYA İLƏ HANSI HÜQUQLARI VAR?

## İdentifikasiya (insan alveri qurbanının müəyyənləşdirilməsi)

İnsan alveri qurbanları rəsmi olaraq elə müəyyən edilməlidir ki, onlara qeyri-qanuni miqrant və ya cinayətkar kimi münasibət göstərilməsin. İdentifikasiya razılaşdırılmış prosedurlara və identifikasiya meyarlarına riayət edən xüsusi təhsilli mütəxəssislər (polis əməkdaşları, sosial işçilər, əmək müfəttişləri, həkimlər, dəstək təminatçıları, və s.) tərəfindən həyata keçirilir.

## Bərpa və fikirləşmə müddəti

Hətta şəxs rəsmi olaraq insan alverinin qurbanı kimi müəyyən edilməsə də, öz vəziyyətini bərpa etməsi, cinayətkarların təsirindən yayınması və/və ya əlaqədar dövlət qurumları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etməsi üçün ona ən azı 30 günlük bərpa və fikirləşmə müddəti təmin edilməlidir. Bu müddət ərzində həmin şəxs ölkədən çıxarıla bilməz və hətta onun qalması qeyri-qanuni olsa belə ona müvafiq yardımlar göstərilməlidir.

## Yardım

Cinayət istintaqı ilə əməkdaşlıq etməyə və ya şahid qismində çıxış etməyə hazır olub-olmamasından asılı olmayaraq insan alveri qurbanı aşağıdakı hüquqlara malikdir:

- münasib və təhlükəsiz yaşayış yeri
- psixoloji dəstək
- maddi dəstək
- təcili tibbi xidmət
- tərcümə xidmətləri
- məsləhət və informasiya verilməsi
- cinayət mühakimə icraatı zamanı yardım
- ölkə ərazisində qanuni şəkildə məskunlaşmış qurbanlara əmək bazarına çıxış, peşə təlimi və təhsili imkanı.

## Hüquqi yardım

İnsan alveri qurbanlarına hüquqlarına və bütün müvafiq prosedurlara dair məlumatı anladıqları dildə ala bilmələri təmin edilməlidir. Onlar həmçinin hüquqi yardım və xüsusi şərtlər daxilində pulsuz hüquqi yardım almaq hüququna malikdirlər.

## Yaşayış üçün icazə

Şəxsi vəziyyətləri tələb etdiyi və ya hər hansı insan alveri faktının istintaqı ilə bağlı əlaqədar orqanlarla əməkdaşlıq etmələri baxımından onların ölkə ərazisində qalmaları vacib hesab edildiyi təqdirdə, insan alveri qurbanlarına yenilənə bilən yaşayış icazəsi verilə bilər. Yaşayış icazəsinin verilməsi onların sığınacaq axtarmaq hüququnu məhdudlaşdırmamalıdır.

## Şəxsi həyatın və kimliyin qorunması

İnsan alveri qurbanının şəxsi məlumatları ictimailəşdirilə bilməz və yalnız müəyyən qanuni məqsədlər üçün saxlanıla bilər. Bu məlumatların qurbanların identifikasiyasına gətirib-çıxara biləcək hər hansı bir formada istifadəsi yolverilməzdir.

## İstintaq və məhkəmə prosesləri zamanı qurbanların müdafiəsi

Gərək olduqda, insan alveri qurbanlarının və onların ailə üzvlərinin cinayətkarın mümkün qisas və ya hədə-qorxusundan mühafizəsi təmin olunmalıdır. Buraya fiziki mühafizə, yaşayış yerinin və ya kimliyin dəyişdirilməsi və iş tapmağa yardım daxildir.

## Kompensasiya

İnsan alveri qurbanlarının bu cinayəti törətmiş şəxslərin onlara vurduqları zərərə görə maliyyə kompensasiyası almaq hüququ var. Kompensasiya məhkəmə tərəfindən insan alveri edən şəxsin müsadirə edilmiş əmlakı hesabına və ya istismarın baş verdiyi dövlət tərəfindən təmin edilir.

## Repatriasiya və geri qaytarılma

Insan alveri qurbanının öz olkəsinə qaytarılması şəxsin hüquqları, təhlükəsizliyi, ləyaqəti, eləcə də onun insan alveri qurbanı olması faktı ilə bağlı istənilən hüquqi icraatın xarakteri lazımi qaydada nəzərə alınmaqla həyata keçirilməlidir. Geri qayıtdıqdan sonra insan alveri qurbanına sosial inteqrasiya yardımı, eləcə də təhsil və iş tapmaq yardımı təmin edilməlidir.

# İNSAN ALVERİNİN QURBANI OLMUŞ UŞAQLARIN HANSI XÜSUSI HÜQUQLARI VAR?

**İnsan alveri qurbanlarına şamil edilən yuxarıda sadalanan hüquqlardan əlavə uşaqlar aşağıdakı xüsusi hüquqlardan da yararlanırlar:**

- müşayiət edilməyən uşaqlar onların maraqlarına uyğun şəkildə çıxış edəcək və onları təmsil edəcək qəyyum ilə təmin olunurlar;
- uşağın kimliyini və vətəndaşlıq mənsubiyyətini, eləcə də, onun maraqlarına uyğun olduğu təqdirdə, ailəsinin olduğu yeri müəyyənləşdirmək üçün addımlar atılır;
- qurbanın yaşı məlum olmadıqda, lakin on səkkiz yaşına çatmamış olduğuna inanmaq üçün ağlabatan səbəblər olduqda, onun uşaq olması ehtimal olunur və onun yaşı müəyyən olunan müddətdə xüsusi mühafizə tədbirləri görülür;
- ehtiyacları nəzərə alınmaqla uşaqlar təhsil və digər yardım tədbirləri ilə təmin edilirlər;
- repatriasiyadan öncə risk və təhlükəsizlik dəyərləndirməsi aparılır və uşaq yalnız onun maraqlarına uyğun olduğu təqdirdə repatriasiya edilir;
- uşaqlar istintaq və məhkəmə müddətində xüsusi müdafiə tədbirlərindən yararlanırlar.





# KONVENSİYANIN HƏYATA KEÇİRİLMƏSİNƏ NƏZARƏT

Avropa Şurasının bu konvensiyasının iştirakçısı olan hər bir ölkə müntəzəm olaraq İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupu (GRETA) tərəfindən monitorinq edilir. GRETA-nın rolu Konvensiyanın müddəalarının səmərəli həyata keçirilməsini və qurbanların hüquqlarına riayət edilməsini təmin etməkdir.

GRETA yaxşı təcrübələri və boşluqları üzə çıxaran məruzələr hazırlayaraq, hər bir ölkədə vəziyyəti ayrı-ayrılıqda təhlil edir və hər bir ölkədə Konvensiyanın icrasının səmərəliliyinin artırılmasına dair tövsiyyələr verir. Həmin məruzə və tövsiyyələr ictimaiyyətə çatdırılır və Avropa Şurasının insan alverinə qarşı mübarizə üzrə saytında yerləşdirilir.

THB–INF (2013)2

## Əlaqə və əlavə məlumatlar üçün

İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının Katibliyi
(GRETA və Tərəflər Komitəsi)
Avropa Şurası / Council of Europe
F-67075 Strasbourg Cedex
Fransa / France
E-mail: Trafficking@coe.int

**www.coe.int/trafficking**

PREMS 232113 – AZE – © Council of Europe – Photographs © Shutterstock